UOT: 338:37
JEL: L29

ƏZIZOVA R.S.
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

BİLİK İQTİSADİYYATINDA ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ROLUNUN ARTIRILMASI

Xülasə

Tədqiqatın məqsədi:*Bilik iqtisadiyyatının təhsil amilinin inkişafında ali təhsil müəssisələrinin* rolunun qiymətləndirilməsi

Metodologiya: reqresiya analizi

Əsas nəticələr: Azərbaycanda bilik iqtisadiyyatının səviyyəsi orta dünya səviyyəsindən bir qədər aşağıdır; 2000-ci ildən başlayaraq Azərbaycanda təhsil göstəriciləri davamlı olaraq artıb; Azərbaycanda adambaşına ÜDM həcminin artması təhsil indeksinin artmasına səbəb olub; Azərbaycanda bilik iqtisadiyyatının formalaşması və inkişafı üçün ali təhsil infrastrukturu gücləndirilməlidir;Azərbaycanda bilik iqtisadiyyatının inkişafı üçün ali təhsilə cəlb edilən tələbələrin sayı artırılmalıdır; Bilik iqtisadiyyatının inkişafı üçün Azərbaycanda "təhsilin faydalılığı" gücləndirilməlidir.

Açar sözlər:*bilik iqtisadiyyatı, təhsil indeksi, bilik indeksi, ÜDM həcmi, "təhsilin faydalılığı"*

GİRİŞ


XX əsrin sonlarından elmi-texniki tərəqqinin sürətli inkişafı iqtisadiyyatda ciddi keyfiyyət və kəmiyyət dəyişiklikləri yaratdı. Xüsusilə, elektronioka və proqram təminatı sahəsində inkişaf nəinki iqtisadi inkişaf sürətini, həm də insanların social həyatına, beynəlxalq əlaqələrin genişlənməsinə ciddi təsir göstərdi. İqtisadi fəaliyyət sahələrinə, ticarət əlaqələrinə, bank sisteminə electron xidmətlərin nüfuz etməsi sayəsində iqtisadi əlaqələrin sürəti və həcmi genişləndi. Artıq dünyanın bütün ölkələrində mobil telefonlar, electron kart sistemi, nəğdsiz ödənişlər və sair xidmətlər geniş yayılıb.

Elmi-texniki tərəqqi, texnoloji sıçrayış nəticəsində nəqliyyat sisteminin sürətli inkişafı ilə yanaşı, həmçinin distant fəaliyyət sahələrinin də formalaşmasına səbəb oldu. Belə ki, İnformasiya Kommunikasiyaları Sisteminin (İKS) inkişafı nəticəsində işçilərin işləmək üçün yerdıyişməsinə getdikcə daha az lüzum qalır. İndi bir ölkənin ofisində oturub digər ölkədə nəinki taksi sifarişini qəbul etmək mümkün olur, hətta elmi tədqiqat işlərini həyata keçirirlər. İnternet vasitəsilə repititorluq etmək və ya repititorların xidmətindən istifadə etmək, ali təhsil almaq, ticarət aparmaq, pul köçürmək, yemək sifariş etmək və sair xidmətləri asanlıqla həyata keçirmək mümkündür. J.Sohn tərəfindən aparılan tədqiqatlar göstərir ki, telekommunikasiya sistemlərinin inkişafı nəticəsində əvvəllər yalnız şəhərdə həyata keçirilə bilən iqtisadi fəaliyyətlər indi şəhər infrastrukturundan kənarda da yerinə yetirilə bilər [1]. Son tədqiqatlar göstərir ki, internet işçilərin sayı, birbaşa ofisdə işləyənlərin sayı ilə müqayisə oluna biləcək qədər artıb və bu artım davamlıdır.


Texnoloji inkişaf istehsalın amillərinə yenidən baxışı zəruri edir. Ənnəvi baxışda capital və əmək iqtehsalın əsas amilləri idisə, yeni baxış bu sıraya texnologiyanı və biliyi də əlavə edir. Beləliklə, yeni iqtisadi şərait – "bilik iqtisadiyyatı" və ya "rəqəmsal iqtisadiyyat" formalaşmağa başlayır. Lakin bu yeni termin müxtəlif tədqiqatşılar tərəfindən müxtəlif cür şərh edilir. Hələ ki, texnologiyanın iqtisadiyyata nüfuzu və dərəcəsi ilə bağlı standart göstəricilər yoxdur. Hayek təklif edir ki, "biliktutumlu" sənayenin qurulması və intensivliyi "nə qədər az fərdi iştirakçının düzgün qərar qəbul etmək bacarığının olmasından asılıdır" [2]. İqtisadiyyatın nə dərəcədə elmtutumlu olması iqtisadiyyatda çalışan və cəmiyyətdə olan fərdlərin nə dərəcədə biliyə yiyələnməsi ilə bağlıdır. Bilik tutumlu iqtisadiyyat bilik və bacarıqlara yiyələnən insanlar tərəfindən yaradıla bilər. Bilik iqtisdiyyatının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə metodlarından, o cümlədən bilik aktivlərindən [3], işçinin bilik və bacarıqlarının intensivliyindən [4], işçilərin ixtisaslaşmasından[5], işçilər arasında ixtisaslaşmış işçilərin payından [6] asılıdır.

1. Müxtəlif ölkələr üzrə bilik iqtisadiyyatının qiymətləndirilməsi

Dünya Bankının 2012-ci ildə 146 ölkə üzrə hesabladığı "bilik iqtisadiyyatı indeksi" üzrə sıralanmada İsveç 9,43 balla birinci yerdə, Myanma isə 0,96 balla sonuncu yerdə qərarlaşıb. Qeyd edək ki, həmin ildə Azərbaycan 4,56 balla 79-cu yerdə olub.



Diaqram №1.
Bilik iqtisadiyyatı indeksi (X-oxu) ilə adambaşına ÜDM həcmi (Y-oxu) arasında əlaqə



Diaqram №2.
Bilik iqtisadiyyatının inkişafının ÜDM artım ilə əlaqəsi


Bilik iqtisadiyyatı indeksi ilə adambaşına ÜDM həcmi arasındakı əlaqənin 1995, 2000, 2008 və 2012-ci illər üzrə olan nəticələri də 1-ci diaqramda təsvir edilən nəticə ilə tamamilə uyğundur. Bu əlaqə bir daha təsdiq edir ki, hansı ölkələrdə bilik iqtisadiyyatının aspektləri daha yaxşı inkişaf edibsə, o ölkədə adambaşına ÜDM həcmi də yüksək olur. Bu nəticələr Kobb-Duqlas istehsal funksiyasının endogen artım nəzəriyyəsinə əsasən ifadə edilən mahiyyətini təsdiq edir. Artıq istehsal funksiyasında əsas amillər kimi adi əmək və ya adi kapital deyil, bilik və bacarıqlara yiyələnən ixtisaslaşmış əmək və insan kapitalı rol oynayır. 1-ci Diaqramda bəzi ölkələrin ümumi trenddən kənara çıxması təbii sərvətlərin satışından ÜDM həcminə əlavələrlə bağlıdır. Neft və qaz istehsal edən ölkələrdə biliyin o qədər də yüksək qatqısı olmadan adambaşına ÜDM həcminin kəskin artması heç də bu iki göstərici arasındakı ciddi eksponensial asılılığa xələl gətirmir.

Bilik iqtisadiyyatının inkişafı və inkişaf sürəti də ÜDM həcminin artımına təsir göstərir. 2-ci Diaqramda bilik iqtisadiyyatının əsas göstəricisi olaraq bilik iqtisadiyyatı indeksi ilə adambaşına ÜDM artımı arasındakı əlaqə təsvir edilib. Bu əlaqə o qədər də ciddi olmasa da ümumi trend hiss edilir. Yəni bilik iqtisadiyyatının müsbət dəyişməsi, ÜDM həcminə də pozitiv təsir göstərir. Şübhəsiz ki, belə əlaqənin nə dərəcədə güclü olmasını hər hansı bir ildə ölkələrarası dəyişənlərlə öyrənməyin (cross-sectional) bəzi metodoloji çatışmazlıqları var. Əsas çatışmazlıq xeyli sayda ölkədə ÜDM həcminin təbii sərvətlərin satışından əmələ gələn hissəsinin istehsal funksiyasına tabe olmaması ilə bağlıdır.


Digər tərəfdən, zaman sırası ilə (time ceries) bu iki indikator arasındakı əlaqənin öyrənilməsində də bəzi çatışmazlıqlar var. Əsas çatışmazlıq ondan ibarətdir ki, bilik iqtisadiyyatını xarakterizə edən əsas göstərici kimi "bilik iqtisadiyyatı indeksi" daha məhdud illər üçün (1995, 2000, 2008 və 2012) hesablanıb. Tədqiq edilən dövrlər az olduğundan hər hansı bir ölkə üçün zaman sırasından istifadə etmək xeyli çətin olur. Lakin belə metodoloji çətinliklərin olmasına baxmayaraq, bilik iqtisadiyyatının inkişafının ÜDM artımına pozitiv təsir etdiyini təsdiq etmək olar.

Bilik iqtisadiyyatının inkişafında əsas hesab edilən 4 sütundan biri təhsilin inkişafıdır. Qeyd edək ki, digər 3 sütunun inkişafı da birbaşa və ya dolayısı ilə təhsilin inkişafından asılıdır. Hər bir ölkə öz rəsmi siyasətində təhsilin inkişafına xüsusi önəm verdiyini bəyan edir. Lakin təcrübə göstərir ki, heç də bütün ölkələr təhsilin inkişafına ölkənin davamlı iqtisadi inkişafının əsası kimi yanaşmır. Elə bunun nəticəsidir ki, bilik iqtisadiyyatı müxtəlif ölkələrdə müxtəlif səviyyədə inkişaf edir.

Təhsil biliyin əsasında dayanan mühüm prosesdir. Təhsilin keyfiyyəti və ölkədə savadlılıq səviyyəsinin artması təhsilə ayrılan vəsaitlərin həcmindən çox asılıdır. Bu vəsaitlərin arasında dövlətin vəsaitləri xüsusi önəm daşıyır. Dövlətin iqtisadiyyata müdaxiləsi səviyyəsi həm də təhsil sisteminə ayrılan vəsaitlərin həcmi ilə ölçülür.



Diaqram №3.
Bilik iqtisadiyyatı indeksi (Y-oxu) ilə təhsil xərclərinin ÜDM-da payı (%) (X-oxu) arasında əlaqə



Diaqram №4.
Təhsil indeksi (X-oxu) ilə Bilik iqtisadiyyatı indeksi (Y-oxu) arasında əlaqə

3-ci Diaqramda 50 ölkədə bilik iqtisadiyyatının səviyyəsi ilə təhsilə ayrılan vəsaitlərin ÜDM-da payı arasındakı əlaqə təsvir edilib. Diaqramdən görünür ki,bu iki göstərici arasında ciddi əlaqə olmasa da müəyyən trend var. Bu trend təhsilə ayrılan vəsaitlərin ÜDM-da payının artmasının bilik iqtisadiyyatına müsbət təsiri ilə bağlıdır. Lakin qeyd etmək lazımdır ki, təhsilə ayrılan vəsaitlərin nisbi qiyməti deyil, daha çox mütləq qiyməti təsir göstərir. Bunu 7-ci Diaqramdə paylanmanın çox geniş olması da əyani göstərir. Yəni kiçik ÜDM həcminə və kiçik bilik iqtisadiyyatı indeksinə malik olan hər hansı bir ölkədə (məsələn, Qana) təhsilə ayrılan vəsaitin ÜDM-da payı yüksək ola bilər (Qanada bu rəqəm 8%-dir) . Amma bu məbləğin mütləq qiyməti çox az olduğundan bilik iqtisadiyyatının inkişafına ciddi təsir göstərmir.

Azərbaycanda bilik iqtisadiyyatının göstəriciləri

Qeyd etdiyimiz kimi təhsilin inkişafı bilik iqtisadiyyatının formalaşmasına və inkişafına təsir göstərən 4 əsas amillərdəndir. 4-cü Diaqram 120 ölkədə təhsil indeksi ilə bilik iqtisadiyyatı indeksi arasındakı korrelyasiya əlaqəsi təsvir edilib . Paylanmanın sızlığı, determinasiya əmsalının yüksək olması bir daha təsdiq edir ki, bilik iqtisadiyyatının formalaşmasında təhsilin rolu yüksəkdir. Ayrıca götürülən ölkə üçün, o cümlədən Azərbaycan üçün bu iki göstərici arasındakı əlaqənin uzun zaman intervalında öyrənilməsi bilik iqtisadiyyatı indeksinin hesablanmasını tələb edir. Lakin hətta Dünya Bankının hesabladığı rəqəmlər əsasında Azərbaycan üçün bu göstəriciləri bəzi ölkələrlə müqayisəli təhlil etmək olar. Təəssüf ki, Azərbaycanda bilik iqtisadiyyatı indeksi dünyanın 146 ölkəsi üzrə orta rəqəmdən bir qədər aşağıdır. Bu əsasən, İqtisadi və institusional rejim indeksi və innovasiya indeksi üzrə mövcud vəziyyətin qənaətbəxş olmaması ilə bağlıdır. Son illər İKT üzrə ölkədə uğurlu islahatların və infrastrukturun yaradılmasına baxmayaraq, Azərbaycan hələ də bu sahədə dünya üzrə orta göstəricidən geri qalır.

Cədvəl 1


Azərbaycanda bilik iqtisadiyyatı indeksi və bilik indeksinin, həmçinin onların komponentlərinin inkişaf dinamikası

	Bilik iqtisadiyyatı indeksi	Bilik indeksi	İqtisadi və institusional rejim indeksi	Təhsil indeksi	İnnovasiya indeksi	İKT indeksi
1995	4,62	5,59	1,71	5,64	4,97	6,17
2000	3,61	4,25	1,68	5,84	3,38	3,54
2012	4,56	4,96	3,36	5,95	4,01	4,93


Azərbaycanın 1995-ci illə müqayisədə 2000-ci ildə bilik iqtisadiyyatı indeksinin xeyli azaldılmasını ölkədə yeni iqtisadi sistemə keçidlə izah etmək olar. Bu dövrdə geniş özəlləşdirmə proqramının həyata keçirilməsi, fəaliyyəti qənaətbəxş olmayan istehsal müəssisələrinin dayandırılması,

yeni müəssisələrin yaradılmasının ləngiməsi iqtisadi fəaliyyət sahələri arasındakı əlaqələri, həmçinin elm və təhsil müəssisələri ilə istehsal müəssisələri arasında əlaqələri xeyli zəiflətdi.

Bu illərdə Azərbaycanın bilik iqtisadiyyatını xarakterizə edən bütün göstəricilər zəifləyib. Lakin sonrakı illərdə İqtisadi və institusional rejiminin yaxşılaşdırılması, innovasiya tədbirlərinin həyata keçirilməsi İKT-nin inkişafı ilə bağlı tədbirlər həyata keçirildi.



Diaqram №5.
Azərbaycanda bilik iqtisadiyyatının komponentlərinin dinamikası




Diaqram №6.
Azərbaycanda bilik iqtisadiyyatı indeksinin dinamikası ilə ÜDM həcminin dinamikasının müqayisəsi


Müstəqilliyin ilk illərində iqtisadi fəaliyyət sahələri ilə elmi-tədqiqat institutları və təhsil müəssisələri arasında əlaqələrin qırılması, bilik tutumlu məhsul istehsal edən müəssisələrin fəaliyyətinin zəifləməsi, ölkənin yeni iqtisadi münasibətlərə keçməsi nəticəsində biliyin mal və xidmətlərin istehsalından təcrid olunmuş Diaqramdə inkişafı dövrü yaşanıb. Əsas istehsal malları isə bilik tutumlu olmadığından bilik iqtisadiyyatının əsas amillərinin inkişafı ilə əlaqəli olmayıb. Sonrakı illərdə ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsi və yeni texnoloji avadanlıqlardan istifadə biliyin iqtisadiyyatda əhəmiyyətini genişləndirdi. 2000-ci ildən sonra bilik indeksinin və bilik iqtisadiyyatı indeksinin davamlı artımı ölkə iqtisadiyyatında bilik və bacarıqlı mütəxəssislərə tələbatın artdığından xəbər verir. Elə bu illərdən başlayaraq təhsil müəssisələrinin dünya təhsil sisteminə inteqrasiya etməsi istiqamətində, innovasiya və İKT sahəsində proqramların həyata keçiriməsi genişlənib. 2000-ci ildən başlayaraq, Azərbaycanda təhsil sisteminin davamlı inkişafı müşahidə edilir (diaqram 6).

Azərbaycanda bilik iqtisadiyyatının inkişafında ali təhsil müəssisələrinin rolunun qiymətləndirilməsi

Lakin əksər neft və qaz istehsal edən iqtisadiyyatlarda olduğu kimi Azərbaycan iqtisadiyyatında da bilik iqtisadiyyatı indeksi ilə adambaşına ÜDM həcmi arasında ciddi pozitiv əlaqə tapmaq mümkün deyil. Çünki ÜDM həcminin əsas hissəsini neft və qaz gəlirləri təşkil etdiyindən belə asılılığı qeyri-neft sektoru ilə əlaqədə axtarmaq daha doğru olar.



Diaqram №7.
Azərbaycanda təhsil indeksinin [20] inkişaf dinamikası



Diqram№ 8.
Azərbaycanda təhsil indeksi ilə a.b.ÜDM həcmi arasında əlaqə

Azərbaycanda təhsilin inkişafı ilə ÜDM həcmi və ya ÜDM artımı arasında əlaqənin analizi deməyə əsas verir ki, təhsil müəssisələri ilə istehsal və ya xidmət müəssisələri arasında geniş əməkdaşlığın olmaması səbəbindən "təhsilin faydalılığı" xeyli aşağıdır [19]. Digər tərəfdən, biliyin geniş mənada "məhsuldar qüvvəyə" və ya istehsal amilinə çevrilməməsi səbəbindən onun ÜDM həcminə təsirini deyil, əksinə ÜDM həcminin təhsilin səviyyəsinə təsiri haqda danışmaq daha doğru olar. Elə bunun nəticəsidir ki, 2000-ci ildən başlayaraq, ÜDM həcmi artdıqca, təhsil üzrə Azərbaycanın göstəriciləri də artmaqda davam edib.

Lakin buna baxmayaraq, təhsilin inkişafının bütünlükdə adambaşına ÜDM həcminə və qeyri-neft sektorunda yaradılan adambaşına dəyərin həcminə pozitiv təsirləri müşahidə edilməkdədir.

Bilik İqtisadiyyatının formalaşmasında təhsilin, xüsusilə ali təhsilin rolu əsasdır.

.

Cədvəl №2

Azərbaycanda ali təhsil müəssisələri üzrə əsas göstəricilər


	Ali təhsil müəs-sisələrinin sayı - cəmi	Ali təhsil müəs-sisələrində tələbələrin sayı - cəmi, nəfər	Ali təhsil müəs-sisələrində təhsil alan qadınların sayı - cəmi, nəfər	Əhalinin hər 10000 nəfərinə ali təhsil müəs-sisələrində tələbələrin sayı	Ali təhsil müəssisələrini bitirmiş mütəxəs-sislərin sayı - cəmi, nəfər	Əhalinin hər 10000 nəfərinə ali təhsil müəs-sisələri tərəfindən buraxılan mütəxəssislərin sayı
1990	17	105063	39807	146	18235	26
1991	18	107945	38347	147	18219	25
1992	22	99633	38223	134	18991	28
1993	23	94345	39489	125	18842	25
1994	23	89155	38835	117	16098	21
1995	46[3)]	98812	43325	133	17436	23
1996	46	102742	43474	137	19377	25
1997	41	100180	41084	132	24274	31
1998	42	106482	41667	139	21113	27
1999	42	116115	46591	150	20030	25
2000	47	119683	49858	147	24488	30
2001	44	120453	53340	147	23903	29
2002	46	120039	53789	145	27795	34
2003	47	121535	56099	146	28460	34
2004	47	127248	59755	151	31232	37
2005	47	129948	62022	152	32508	38
2006	48	129141	61265	149	28141	33
2007	48	130430	61172	149	31279	36
2008	48	136587	62394	154	32580	37
2009	53	139194	63940	155	34591	39
2010	51	140241	65112	154	31071	34
2011	51	143146	66521	155	30812	34
2012	52	145584	69814	158	35128	38
2013	52	151274	73195	160	33758	36
2014	53	158 212	76 695	167	32 826	35
2015	54	161234	78662	168	33705	35
2016	51	163779	79132	169	36951	38

Qeyd: Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Azərbaycan ali təhsil göstəricilərinə görə dünya üzrə orta göstəricidən yüksəkdə olsa da inkişaf etmiş ölkələrin göstəricilərindən hələ də xeyli geridədir. Ali təhsil müəssisələrinin iqtisadi agentlərlə, xüsusilə elmtutumlu məhsul istehsal edən müəssisələrlə əlaqəsinin zəif olması ali təhsilin faydalılığını xeyli aşağı salır. İxrac yönlü biliktutumlu məhsulların istehsalı elmi-tədqiqat və təhsil müəssisələri ilə birgə həyata keçirilməlidir. 2-ci cədvəldən görünür ki, müstəqillikdən dərhal sonra ali təhsil alan gənclərin sayı xeyli azalıb. Hətta 1994-cü ildə 1990-cı illə müqayisədə 20% azalma müşahisə edilir. Əhalinin hər 10000 nəfərinə ali təhsil müəssisələrində tələbələrin sayı yalnız 2003-cü ildə 1990-cı il səviyyəsinə çatıb və sonrakı illərdə bir qədər artıb130-dan çox ölkə üzrə bilik iqtisadiyyatı indeksinin təhsilin səviyyəsindən və ali təhsilə cəlb edilən gənclərin sayından asılılığının analizi göstərir ki, bilik iqtisadiyyatının formalaşması dolayısı ilə bəzi daha konkret tədbirlərin həyata keçirilməsindən asılıdır. Bu tədbirlərdən iki mühümünü –təhsil infrastrukturunun inkişaf etdirilməsini və daha çox gəncin ali təhsilə cəlb edilməsini xüsusi qeyd etmək lazımdır. Hər iki tədbir həm də təhsilin keyfiyyətinin artırılması ilə müşaiyət olunmalıdır. Lakin bu tədbirlər "təhsilin faydalılığı" ilə əlaqədə həyata keçirilməsə yüksək təhsilli kadrların ölkəni tərk etməsi ilə nəticələnə bilər. Bu isə nəinki bilik iqtisadiyyatının formalaşmasına imkan verməz, əksinə ölkə iqtisadiyyatına ciddi zərər gətirər. Ona görə də ali təhsil müəssisələrində təhsil prosesi elmi-tədqiqat institutları və istehsal müəssisələri ilə birgə fəaliyyət göstərməlidirlər.

Diaqram №9

Azərbaycanda təhsil indeksi ilə Əhalinin hər 10000 nəfərinə ali təhsil müəssisələrində tələbələrin sayı göstəricisi arasında əlaqə



Bilik iqtisadiyyatının təhsilin səviyyəsindən, sonuncunun isə ölkədəki təhsil infrastrukturundan və ali təhsilə cəlb edilən tələbələrin sayından asılılığı (diaqram 9) deməyə əsas verir ki, təhsil infrastrukturunun genişləndirilməsinə və daha çox gəncin ali təhsilə cəlb edilməsinə ehtiyac var.

NƏTİCƏ

Bilik iqtisadiyyatının mahiyyətinin, onun ölçülməsinin və bəzi makroiqtisadi göstəricilərlə əlaqəsinin analizi belə nəticə çıxarmağa imkan verir ki,

- Bilik iqtisadiyyatı bilik istehsal edə bilən yüksək inkişaf etmiş iqtisadiyyatdır;
- Bilik iqtisadiyyatı həm də yüksək məhsuldarlıqla yeni dəyər yarada bilən iqtisadiyyatdır;
- Bilik iqtisadiyyatının əsas komponenti təhsillə bağlıdır;
- Təhsil səviyyəsi hər bir ölkədə iqtisadi inkişafla səbəb-nəticə əlaqəsindədir
- Azərbaycanda bilik iqtisadiyyatının səviyyəsi orta dünya səviyyəsindən bir qədər aşağıdır;
- 2000-ci ildən başlayaraq Azərbaycanda təhsil göstəriciləri davamlı olaraq artıb;
- Azərbaycanda adambaşına ÜDM həcminin artması təhsil indeksinin artmasına səbəb olub;
- Azərbaycanda bilik iqtisadiyyatının formalaşması və inkişafı üçün ali təhsil infrastrukturu gücləndirilməlidir;
- Azərbaycanda bilik iqtisadiyyatının inkişafı üçün ali təhsilə cəlb edilən tələbələrin sayı artırılmalıdır;
- Bilik iqtisadiyyatının inkişafı üçün Azərbaycanda "təhsilin faydalılığı" gücləndirilməlidir.

ƏDƏBİYYAT SİYAHISI

1.Sohn, J. 2002. Information technology in the 1990s: More footloose or more location-bound? Paper presented at the Association of Collegiate Schools of Planning Conference, November 21-24, Baltimore, MD.

2.Hayek, F.A. 1948. *Individualism and Economic Order*. Chicago, IL: The University of Chicago Press.

3.Machlup, F. 1962. *The Production and Distribution of Knowledge in the United States.* Princeton, N.J.: Princeton University Press.

4.Eliasson, G, S. Folster, T. Lindberg, T. Pousette and E. Taymaz. 1990. *The Knowledge Based Information Economy*. Stockholm: The Industrial Institute for Economic and Social Research.

5.Burton-Jones, A. 1999. *Knowledge Capitalism*. Oxford: Oxford University Press.

6.Beck, N. 1992. *Shifting Gears: Thriving in the New Economy*. Toronto: Harper Ed.

7.Onur Ulas INCE . Friedrich List and the Imperial origins of the national economy (http://ink.library.smu.edu.sg/cgi/viewcontent.cgi?article=3244&context=soss_research)

8. Корицкий А.В. Введение в теорию человеческого капитала: учебное пособие. Новосибирск: СибУПК, 2000., səh. 85

9.Романтеев П.В. Аналитический обзорметодик оценки человеческого капитала //Экономика, предпринимательство и право.— 2011. — 02. — С. 25-37., səh.28

10. Корчагин Ю.А. Российский человеческий капитал: фактор развития или деградации?: монография. — Воронеж: ЦИРЭ, 2005.— С. 252. Səh.8-9

11. Yenə orada. Səh 9.

12. Drucker, P. (1998). From capitalism to knowledge society. In D. Neef (Ed.), The knowledge economy (pp.15-34). Boston: Butterworth-Heinemann.

13. OECD. (1996). *The knowledge-based economy*, Organization for Economic Cooperation and Develoment, Paris, France.

14. Kanter, R. M. (1995). Managing the human side of change. In D. A. Kold, J. S. Osland & I. M. Rubin (Ed.), *The organizational behaviour reader* (pp. 676–682). NJ: Prentice Hall.

15. Abramowitz, M., & David P. (1996). *Technological Change and the Rise of Intangible Investments: The US Economy's Growth-path in the 20th Century*, in *Employment and Growth in the Knowledge-based Economy*, OECD, Paris, France.

16. Dalkir, K. (2005). *Knowledge management in theory and practice*. Amsterdam: Elsevier.

17. Tapscott, D. (2014). *The digital economy. Anniversary Edition: Rethinking promise and peril in the age of. networked intelligence*. New York: McGraw-Hill.

18. Karlsson, C., Börje J., and R. Stough R., (2009). Human capital, talent and regional growth. CESIS Electronic Working Paper Series Paper No. 191, JIBS and CESIS, School of Public Policy.

19. M. Gülaliyev R.Əiziova. Ali təhsil müəssisələrində təhsilin ümumi faydalılığının "gəlir" komponentinin hesablanması metodu //BDU-nin Beynəlxalq hüquq və inteqrasiya problemləri jurnalı. 3 (47) 2016

20. UNDP Human Development Report Office. (http://hdr.undp.org/en/content/education-index)

Азизова Р. С.
Азербайджанский Государственный
Экономический Университет (UNEC)

Повышение роли высшего образования в формировании экономики знания

Резюме

Цель исследования: Оценить роли высшего образования в формировании экономики знания в Азербайджане

Методология: регрессионный анализ

Заключения: Уровень развития экономики знания в Азербайджане низкий по сравнению мирового среднего показателя; с 2000 года показатели развития образования в Азербайджане улучшились; повышение ВВП на душу населения положительно повлияло на повышение индекса образования в стране; есть необходимости улучшить инфраструктуры высшего образования, повысить число студентов и усилить «полезность образования» для формирования и развития экономики знания в Азербайджане.

Ключевые слова: *экономики знания, индекс образования, индекс знания, ВВП, «полезность образования»*

Azizova R.S.
Azerbaijani State University of Economics (UNEC)

Increase in a role of the higher education in formation of knowledge economy

Summary

Research objective: To estimate roles of the higher education in formation of knowledge economy in Azerbaijan

Methodology: regression analysis

Conclusions: The level of knowledge economy development in Azerbaijan is lower in comparison with a world average; since 2000 education development indicators in Azerbaijan are improved; increase in GDP per capita positively influenced to the education index in the country; there is need to improve infrastructures of the higher education, to raise number of students and to enhance " unility of education " for formation and development of knowledge economy in Azerbaijan.

Keywords*: knowledge economies, index of education, index of knowledge, GDP, "utility of education"*

Daxil olub: 14. 06. 2018
Rəy verib: AMEA İqtisadiyyat Institutunun *"Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı problemləri"* şöbəsinin məkdaşı i.f.d.*Seyidova S.M.*